**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT -73**
**DOI: 10.52094/3005-9941.44.2023.0159**

**Samirə Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**E-mail: mamedova.samira088@gmail.com**

# AZƏRBAYCAN RƏSSAMLARININ ƏSƏRLƏRİNDƏ ESXATOLOGİYA MÖVZUSU

**Xülasə:** Müasir dövr Azərbaycan rəngkarlığının inkişaf dinamikası həm üslub, həm də mövzu baxımından çox rəngarəngdir. Bu rəngarəngliyə xüsusi rəng qatan mövzulardan biri də esxatologiyadır. Esxatoloji ideyaların yaradıcı təxəyyülü ilə birləşməsi maraqlı işlərin ərsəyə gəlməsinə səbəb olur. Hazırkı məqalədə müasir Azərbaycan rəssamlarının əsərlərində esxatologiya mövzusu araşdırılır. Müseyib Əmirovun "Apokalipsis", Bəhram Xəlilovun "Cənnət bağı", Nazim Babayevin "Müqəddəs dağ" adlı əsərləri nəzərdən keçirilərək təhlil edilir bir neçə ümumiləşmələr aparılmışdır.

**Açar sözlər:** esxatologiya, axirət, apokalipsis, cənnət, Azərbaycan rəssamları

İlahiyyatın və fəlsəfənin qolu olan esxatologiya, bəşəriyyətin və kainatın son taleyinin öyrənilməsi, dərin və eyni zamanda da mürəkkəb mövzudur. Əsrlər boyu rəssamlar əsərlərində esxatoloji mövzulara müraciət edərək, rəsmdən sonluq, mühakimə və axirət həyatını şərh etmək üçün güclü vasitə kimi istifadə ediblər. Rəssamlar öz əsərləri vasitəsi ilə tamaşaçıları esxatoloji mövzularda dərin düşüncələrə cəlb etmək üçün təxəyyül və təfəkkürün gücündən istifadə ediblər. Müasir dövrdə rəssamlıqda esxatologiyanın tədqiqi müxtəlif forma və şərhlər almışdır. Müasir rəssamların düşündürücü və müəmmalı kompozisiyaları esxatoloji mövzuların vizual təsvirini inkişaf etdirməkdə və seyrçiləri ovsunlamaqda davam edir.

Esxatologiya uzun müddətdir ki, bəşəriyyət üçün heyranlıq və fərziyyə mənbəyi olmuşdur. Bu mövzu ətrafında olan fərziyyələr, miflərin, fəlsəfənin, elmin və eləcə də rəssamlığın inkişafının əsas hərəkətverici mənbəyi olub desək yanılmarıq. Məhz buna görədir ki, tarixin gedişatına qısa nəzər saldıqda, bu mövzunun hər dönəm üçün aktual olduğunu görə bilirik. Belə ki, oxuyub-yazmağı bacarmayan insanları daim sonluq haqqında düşünərək pis əməllərdən yayındırmağa səsləyən xristian dini ilk dönəmlərindən XV əsrədək kilsələri bəzəyən freskalar vasitəsilə bu missiyanın öhdəsindən gəlməyi bacarmışdır. Erkən xristian sənətində esxatologiya mövzusu tez-tez Son Qiyamət səhnələri vasitəsilə təmsil olunurdu ki, bu da salehlərin lənətlənmişlərdən ayrılmasını və Məsihin apokaliptik gəlişini göstərirdi.

Renessans və Barokko dövrlərində Hieronymus Bosch və Pieter Bruegel kimi rəssamlar esxatoloji mövzuları əks etdirən mürəkkəb və alleqorik rəsmlər yaratmışdılar. Boschun "Dünya ləzzətləri bağı" və "Son qiyamət" cənnət, yer və

cəhənnəmə dair sürreal və kabuslu görüntüləri ilə diqqəti çəkir və günahın nəticələrini parlaq təsvir edir. Eyni zamanda Bruegelin "Ölümün zəfəri" və "Babil qülləsi" əsərlərində esxatoloji motivlər fonunda insan səylərinin mənasızlığını çatdırırdı.

Bundan başqa XX əsr modernizmin cərəyanlarının artması ilə bu mövzuya olan müraciətlər azalır. Bunun əsas səbəbi sekulyarizmin artması və dünyada dini fəaliyyətin nisbətən zəifləməsidir (1). Lakin buna baxmayaraq bu dönəm üçün dünyada məşhur esxatoloji süjetli rəsmlərdən Mark Şaqalın silsilə Nuh tufanı mövzulu rəsmləri, Salvador Dalinin "Sonuncu şam yeməyinin müqəddəs mərasimi", Vasili Kandinskinin 1909-1914-cü illər arasında nömrələnmiş Kompozisiyalar seriyası və əlavə olaraq, Tufan, Bütün Müqəddəslər, Dirilmə və Son Qiyamət də daxil olmaqla, açıq-aydın esxatoloji adları olan onlarla əsərini misal göstərmək olar.

XIX əsrin sonlarından bu günə qədər dünyada esxatoloji əhval-ruhiyyə artmaqdadır. Məhz bu səbəbdəndir ki, tarix boyu bu mövzuya sporadik şəkildə olsa da, təsviri sənətdə, heykəltəraşlıqda, ədəbiyyatda, musiqidə rast gəlinir. Ümumilikdə esxatoloji mövzulara tarix, fəlsəfə və sənətşünaslıq aspektində müraciət etmək daha doğru olardı. Tarixi-fəlsəfi yanaşma bu mövzunu daha yaxşı başa düşməyə və qiymətləndirməyə imkan verir. Sənətşünaslıqda isə bu məsələ vizuallaşaraq daha fərqli fikirlər şəklində sərgilənməkdədir (2, 144).

Azərbaycan yaradıcılarının əsərlərindən də bu mövzu yan keçməyib. Ekzistensial narahatlıq və ümidin müasir ifadələri kimi esxatoloji düşüncənin müəmmalı səltənəti ilə mübarizə aparmağa davam edərək, bizə bəşəriyyətin naməlum taleyə doğru səyahətinin vizual təsvirini təqdim edirlər. Bu sənət əsərlərinə nəzər saldıqca insan ruhunun kainatın izaholunmaz sirləri qarşısında məna və dərrakə axtarmaq üçün davamlı gücünü xatırlayırıq.

Azərbaycan tarixində bu mövzuya müraciət etmiş rəssamlardan biri Müseyib Əmirovdur. O, əslində yaradıcılığı boyu ənənəvi Azərbaycan incəsənətinin elementlərini müasir təsirlərlə birləşdirən özünəməxsus üslubu ilə tanınıb. Onun rəsmlərində tez-tez Azərbaycanın məişətindən səhnələr, eləcə də mənzərə, natürmort və portretlərə rast gəlirik ki, bunlar da canlı rənglər güclü duyğu və ifadə hissi ilə səciyyələnir.

Onun 1997-ci ildə, kətan üzərində yağlı boya ilə çəkdiyi, 150x120 sm. ölçülü "Apokalipsis" adlı əsəri diqqətə layiq esxatoloji mövzulu rəsmlərdən sayılır. Qiyamətə dair fərqli inancların fərqli yanaşmaları var. Amma bunları birləşdirən ortaq cəhət, bütün müqəddəs kitablarda da deyildiyi kimi, onun mütləq baş verəcəyidir. Hərçənd ki, Quranda "Qeybi ancaq Allah bilir" deyə ayələr var, son zamanlarda bunun yaxın gələcəkdə olacağı barədə mülahizələr irəli sürülür. Bu zaman baş verəcək dəhşətli hadisələrin müxtəlif ssenariləri yazılıb. Bu təsəvvürlərdən biri Xristianların müqəddəs kitabının sonuncu hissəsində (Apokalipsis və ya Vəyh) insanların görəndə görəndə heyrətə düşəcəyi, var olmuş, yox olan, amma yenə gəlməli olan heyvanlardan bəhs edir (3). Bu yazılardan

təsirlənən rəssam bütün bu mürəkkəb detalları özünəxas tərzlə əks etdirib. Təsvir olunan personajlar çoxluğu və hərəkətliliyi ilə diqqəti cəlb edir. Qeyri-adi varlıqlarla insanların arasında gedən müharibədə insanların bu məxluqlar tərəfindən yeyilməsi təsvir olunub. Göy üzünün tutqun verilməsi, solğun rəng tonları əsərin ağırlığını daha da artırır. Bu rəsm bizi insan varlığının qeyri-müəyyənliyi, həyatın əxlaqi və mənəvi ölçüləri, hər şeyin sonunu əhatə edən sirlər haqqında düşünməyə dəvət edir.

Esxatoloji mövzulu digər əsərlərdən biri Bəhram Xəlilovun 2003-cü ildə çəkdiyi "Cənnət bağı"-dır. Burada biz impressionizm üslubunun təsirini açıq-aydın görə bilirik. Belə ki, işıq və atmosfer xırda fırça toxunuşları ilə ötürülüb. Sərin rəng tonları fonunda ləkələr şəklində olan fırça vuruşları sanki quşları və balıqları xatırladır. Kompozisiyada səhnənin dəqiq təfərrüatları deyil, onun mahiyyəti göstərilir. İlk baxışdan kortəbiilik hiss olunsa da, rəsmdə sanki hərəkətlilik və enerji var və bu da seyrçilərdə yüngüllük və sevinc əhval-ruhiyyəsi oyadır.

Esxatologiyada müqəddəs dağ ruhani yolun simvolik obrazı, ilahi ilə qarşılaşma və ya axır zamanın və yeni səltənətin xəbərçisi kimi şərh edilir. Dini esxatologiyada (yəhudilik, xristianlıq və islam) müqəddəs dağ Yeni Yerusəlimin təsviri ilə əlaqələndirilir. Bu görüntü mənəvi yüksəlişi və Allahın əbədi səltənətini simvollaşdırır. Müqəddəs dağ həm də dünyanın son hadisələrinin və mühakimələrinin baş verəcəyi yer kimi də görülə bilər.

Bu baxımdan Nazim Babayevin 1992-ci ildə çəkdiyi "Müqəddəs dağ" əsəri diqqətə layiq olan rəsmlərdən sayılır. Müqəddəs dağ ruhani yüksəliş və ilahi hüzur yerini təmsil edən simvolik təsvir və ya metafora kimi görünə bilər. İşıq-kölgə effekti rəsmin əzəmətini artırır. Dağın üstündə işığın təsvir olunması sanki göylərdən xəbərin gələcəyini vurğulayır.

Nəticə olaraq onu qeyd etməliyik ki, müasir dövr Azərbaycan rəssamlarının yaradıcılığında esxatologiya mövzusu maraqlı yerdə dayanır. Rəssamların dini və fəlsəfi bilikləri onların təxəyyülü ilə birləşərkən maraqlı kompazisiyalar ərsəyə gəlir. Bu baxımdan məqalədə araşdırılan Müseyib Əmirovun "Apokalipsis", Bəhram Xəlilovun "Cənnət bağı", Nazim Babayevin "Müqəddəs dağ" adlı əsərləri

## Ədəbiyyat siyahısı:

1 – Kərimova Sevil, Güzel sanatda Nuh tufanı ikonoqrafisi. V. Uluslararası Ağrı dağı ve Nuh'un gemisi sempozyumu
2 – Əskərova Sevinc, İkonoqrafik təhlil kontekstində təsviri sənətdə esxatoloji süjetlər. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ELMİ ƏSƏRLƏRİ № 28, 2020.
3 - https://www.jw.org/az/kitabxana/m%C3%BCq%C9%99dd%C9%99s-kitab/nwt/m%C3%BCnd%C9%99ricat/V%C9%99hy/17/




**Müseyib Əmirov. "Apokalipsis"**



**Bəhram Xəlilov. "Cənnət bağı"**



**Nazim Babayev. "Müqəddəs dağ"**

**Самира Махир kызы Маммедова**

## Тема эсхатологии в произведениях Азербайджанских художников

**Резюме:** Слияние эсхатологических идей с творческим воображением приводит к созданию интересных произведений. В настоящей статье исследуется тема эсхатологии в творчестве современных азербайджанских художников. Рассматриваются произведения Мусейиба Амирова «Апокалипсис», «Райский сад» Бахрама Халилова, «Святая гора» Назима Бабаева и исследуется их художественное решение.

**Ключевые слова:** эсхатология, загробная жизнь, апокалипсис, рай, азербайджанские художники

**Samira Mahir gizi Mammadova**

## The theme of eschatology in works of Azerbaijani artists

**Summary:** The fusion of eschatological ideas with creative imagination leads to the creation of interesting works. This article explores the theme of eschatology in the works of contemporary Azerbaijani artists. The works of Museyib Amirov "Apocalypse", "Garden of Eden" by Bakhram Khalilov, "Holy Mountain" by Nazim Babayev are considered and their artistic solution is examined.

**Key words**: eschatology, afterlife, apocalypse, paradise, Azerbaijani artists.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07.09.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məlahət Fərəcova**